1_Layout 1 11.05.2023 16:32 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**

# ƏSGƏR

DİN DAXİLİ QOŞUNLAR

№ 10 (649)

13 may 2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

**Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti**

# AZƏRBAYCAN TARİXİNİN HEYDƏR ƏLİYEV ZİRVƏSİ



Müasir Azərbaycanın memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasından 100 il ötür. Ulu Öndərin zəngin dövlətçilik irsi indiki və gələcək nəsillər üçün əvəzsiz sərvət, böyük qürur və iftixar mənbəyidir.

Tariximizin bütöv bir qərinəsi xalqımızın Ümummilli Liderinin adı ilə qırılmaz tellərlə bağlıdır. Onun Vətəni və xalqı qarşısında misilsiz xidmətləri unudulmur, daim minnətdarlıq hissi ilə xatırlanır. Hər il mayın 10-da xalqımız öz Ulu Öndərinin xatirəsini böyük ehtiramla yad edir, xatirələr dilə gəlir.

Müxtəlif vaxtlarda çəkilmiş fotoşəkillər bizi Heydər Əliyevli günlərə qaytarır. AZƏRTAC-ın arxivində bu dahi insanın həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən minlərlə nadir fotoşəkil saxlanılır.

Yüz il əvvəl Naxçıvanın ucqar kəndində, sadə ailədə dünyaya göz açmış Heydər Əliyev siyasət olimpinin zirvəsinədək yüksəldi. Naxçıvandan başlayan yol Kremlədək gedib çıxdı.

Hələ gənc yaşlarından yüksək vəzifələr tutan Heydər Əliyev 1969-cu ildən başlayaraq çiyinlərində bütün ölkənin yükünü daşıyırdı. İşinin çoxluğuna baxmayaraq, ailəsinə də vaxt ayırırdı. Ailə albomundakı bəzi fotolar uzaq keçmişə aiddir. Biz bu fotolarda onu ömür-gün yoldaşı Zərifə xanımın yanında, övladları İlham və Sevilin, nəvələri Leyla, Arzu və Heydərin, gəlini Mehriban xanımın əhatəsində görürük.

Bu tarixi fotolar sanki dilə gələrək Heydər Əliyevin sədaqətli ömür-gün yoldaşı, qayğıkeş ata, mehriban baba olduğundan danışır.

Azərbaycanın hələ SSRİ dövründə yaşadığı yüksəliş, tənəzzüldən inkişafa gedən yol Heydər Əliyevin adı ilə birbaşa bağlıdır.

1969-cu ilin iyulu... Bu təqvimin Azərbaycan tarixində xüsusi yeri var. Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda Heydər Əliyev birinci katib seçiləndən sonra respublikamızın həyatında yeni bir dövr başladı. O, ətalət və durğunluq buzunu sındırdı, onun hakimiyyətə gəlişi ilə həyat ritmi büsbütün dəyişdi.

Bakıda o dövr üçün nadir müəssisələr, paytaxtımıza bu gün də yaraşıq verən binalar - "Gülüstan" sarayı, Heydər Əliyev Sarayı tikildi. Həmçinin Yeni Əhmədli, Günəşli kimi nəhəng yaşayış massivləri salındı. Kənd təsərrüfatı məhsulları istehsalı dəfələrlə artdı. Bunun nəticəsi olaraq, əhalinin güzəranı da yaxşılaşdı. Heydər Əliyevin Azərbaycana birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illər haqlı olaraq intibah dövrü kimi səciyyələndirilir.

Respublikanın əvvəlki rəhbərlərindən fərqli olaraq, Heydər Əliyev bölgələrə mütəmadi səfərlər edir, zəhmət adamları ilə iş başında görüşür, onların problemləri və qayğıları ilə maraqlanırdı.

Ulu Öndərin alimlər, yazıçılar, mədəniyyət xadimləri ilə görüşləri də ənənə halını almışdı.

1982-ci ildə Heydər Əliyev Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildi. Bu, Azərbaycanda bayram əhval-ruhiyyəsi doğurdu, böyük qürurla qarşılandı. Ulu Öndər vəzifə səlahiyyətlərindən istifadə edərək, İttifaq əhəmiyyətli bəzi layihələri Bakıya yönəltdi. Coşqun fəaliyyəti, yüksək təşkilatçılıq bacarığı onu bütün ittifaqda məşhurlaşdırdı.

Heydər Əliyevin artan nüfuzu və şöhrəti Kreml rəhbərliyində həsəd və paxıllıq hissləri yaradırdı. Mixail Qorbaçov SSRİ-də siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə münasibət dəyişdi. Baş katiblə aralarında yaranmış ciddi fikir ayrılığı səbəbindən 1987-ci ildə tutduğu vəzifələrdən istefa verdi. Doğma Vətənin başı üzərini qara buludlar alanda Azərbaycana qayıtdı.

Ulu Öndərin xalq arasındakı böyük nüfuzundan qorxuya düşən respublika rəhbərləri onun Bakıya yolunu kəsdilər. Bu səbəbdən Heydər Əliyev doğulub boya-başa çatdığı Naxçıvana üz tutdu.

Naxçıvan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev muxtar respublikanı erməni təcavüzündən, siyasi təlatümlərdən qorudu. Yetmiş ildən sonra ilk dəfə Naxçıvanda üçrəngli bayrağımızı ucaltdı.

İqtidarın naşılığı, kreslo davaları Azərbaycanı uçuruma sürükləyirdi. Respublikada xaos və anarxiya hökm sürürdü, müstəqilliyimiz üçün böyük təhlükə yaranmışdı. Belə ağır bir dönəmdə xalq Ulu Öndəri köməyə çağırdı. 1993-cü il iyunun 9-da onu Bakıya gətirən təyyarə Binə Hava Limanına eniş etdi. Xalq xilaskar gözündə gördüyü böyük oğlunu böyük ümid və sevgi ilə qarşıladı.

1993-cü il, 15 iyun. Tariximizə Dirçəliş Günü kimi yazılan həmin gün Heydər Əliyev Ali Sovetin sədri seçildi. Xalqın taleyi üçün məsuliyyəti və xilaskarlıq missiyasını çiyinlərinə götürdü. İctimai-siyasi sabitliyi bərpa edərək əmin-amanlığa, dinc quruculuğa yol açdı. İki dövlət çevrilişi cəhdinin, müxtəlif təxribatların qarşısını alaraq ölkəni parçalanmaq, müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Yenicə yaranmaqda olan nizami ordu ermənilərin torpaqlarımıza aramsız hücumlarını dayandıra bildi. Ulu Öndərin cəbhə bölgəsində əsgər və zabitlərlə görüşləri ordumuzun döyüş ruhunu daha da artırdı.

Azərbaycanı inkişafa aparan yol "Əsrin müqaviləsi" adlanan neft sazişinin imzalanması ilə başladı. Ölkədə hələ siyasi-ictimai sabitlik yetərincə möhkəm deyildi. Azərbaycana sərmayə qoymaq riskli idi. Heydər Əliyev "Amoko", "BP", "Yunokal", "LUKoyl", "Statoyl", "Ekson", "İtoçu" kimi nəhəng şirkətləri inandırmağı bacardı ki, Azərbaycana qoyulan sərmayə batmayacaq. Uzun-uzadı çətin danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Azərbaycanın sosial-iqtisadi inkişafının başlanğıc nöqtəsi olan "Əsrin müqaviləsi" imzalandı. Ulu Öndərin digər mühüm layihəsi Bakı-Tbilisi-Ceyhan neft kəməri oldu. Həmçinin onun təşəbbüsü ilə Bakı-Tbilisi-Ərzurum qaz kəməri ərsəyə gəldi. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövrü bu və digər taleyüklü hadisələrlə zəngindir.

Ümummilli Liderin xalqı qarşısında daha bir müstəsna xidməti özündən sonra İlham Əliyev kimi layiqli varis qoymasıdır. Ulu Öndər həyatının son günlərində xalqa etdiyi müraciətdə ona özü qədər inandığını deyir və bildirirdi ki, İlham Əliyev Azərbaycanı daha parlaq gələcəyə aparacaq. Zaman Ulu Öndərin bu inamını təsdiqlədi. Prezident İlham Əliyev 20 ildir ki, Azərbaycana uğurla rəhbərlik edir, bir-birindən möhtəşəm zəfərlərə imza atır.

Qarabağın düşmən tapdağından azad edilməsi Ulu Öndərin ən böyük arzusu idi. Bu müqəddəs arzu 2020-ci ilin noyabrında gerçəkliyə çevrildi. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli ordumuz düşməni torpaqlarımızdan qovub çıxardı, 30 ilə yaxın davam edən işğala 44 gündə son qoyuldu.

Bu tarixi Zəfərdən söhbət açarkən Prezident İlham Əliyevin Şuşa işğaldan azad olunan gün Fəxri xiyabanda Ulu Öndərin məzarını qürurla ziyarət etməsi, xalqa müraciətində dediyi sözlər yada düşür: "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim. Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır bu gün!

Doğrudan da bu gün Ulu Öndərin ruhu şaddır: düşmənin darmadağın etdiyi yurd yerlərimiz bərpa olunur, Qarabağa həyat yenidən qayıdır.

Vətən müharibəsində qazanılmış möhtəşəm Zəfərin, azad olunmuş torpaqlarda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinin təməlində Heydər Əliyevin ideyaları, inkişaf strategiyası dayanır. Azərbaycan tarixinin Heydər Əliyev zirvəsi illər ötdükcə daha aydın görünür.

**AZƏRTAC-ın materialları əsasında hazırlanıb.**

# Daxili İşlər Nazirliyində "Heydər Əliyev İli"nə həsr olunmuş tədbirlər davam edir








Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasətçi Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə mayın 6-da Daxili İşlər Nazirliyinin rəhbər heyəti, əməkdaşları və hərbi qulluqçuları Fəxri xiyabana gələrək Ulu Öndərin abidəsi önünə çiçək dəstələri düzüblər. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib.

Sonra nazirlikdə Ümummilli Liderin yubileyinə həsr olunmuş tədbir keçirilib.

Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov tədbiri giriş sözü ilə açaraq Ulu Öndər Heydər Əliyevin yeni Azərbaycanın qurulmasında, onun müstəqilliyinin, iqtisadi-siyasi əsaslarının möhkəmləndirilməsində, ölkəmizin beynəlxalq birliyin tam və bərabərhüquqlu üzvünə çevrilməsində, demokratik imicinin yüksəldilməsində, ümumən dövlətçilik tarixində müstəsna xidmətləri barədə ətraflı qeyd edib, daxili işlər orqanlarının formalaşmasında və inkişafında rolunu, şəxsi heyətə diqqət və qayğısını vurğulayıb.

Tədbir iştirakçıları qarşısında Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun şöbə müdiri, tarix üzrə elmlər doktoru, professor Ədalət Qasımov "Azərbaycan xalqının tarixi taleyində Heydər Əliyev fenomeni" mövzusunda əhatəli çıxış edib.

Tədbirdə Ümummilli Liderin zəngin həyat yolundan və fəaliyyətindən bəhs edən "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmi nümayiş olunub.

Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə elan olunmuş "Heydər Əliyev İli" çərçivəsində silsilə tədbirlər nazirliyin Polis Akademiyasında, Ali Hərbi Məktəbində, Əlahiddə Çevik Polis Alayında, Bakı Şəhər Baş Polis İdarəsində, ərazi polis orqanlarında və hərbi hissələrində də keçirilib, həmçinin konfranslar, intellektual yarışlar, idman turnirləri, müsabiqələr, ağacəkmə aksiyaları və sair təşkil edilib.

**DİN-in Mətbuat xidməti**

2_Layout 1 11.05.2023 16:16 Page 1



# Daxili Qoşunlar “Formula-1 Azərbaycan Qran Pri” yarışı zamanı qarşıya qoyulmuş tapşırıqları yüksək səviyyədə yerinə yetirib

Aprelin 28-dən 30-dək Bakıda keçirilən “Formula-1 Azərbaycan Qran Pri” yarışı zamanı təhlükəsizlik tədbirləri yüksək səviyyədə həyata keçirilib. Qeyd edək ki, ölkəmiz artıq yeddinci ildir ki, bu yarışa evsahibliyi edir. Paytaxtımızda ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin olunmasında polis əməkdaşları ilə birlikdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti də qarşıya qoyulmuş tapşırıqların icrasına tam məsuliyyətlə yanaşmaqla üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlib.





Yarış zamanı marşrut üzrə perimetr boyu ərazilərin mühafizəsi təmin edilib, mühəndis-istehkam qrupları tərəfindən tamaşaçılar üçün quraşdırılmış tribunalar və digər obyektlər öncədən yoxlanılaraq müvafiq qaydada aidiyyəti üzrə mühafizəyə verilib.

Nəzarət-buraxılış məntəqələrində polis əməkdaşları ilə birlikdə buraxılış rejimi təmin olunub, hərəkət icazəsi olan mülki avtomobillərin yoxlanılması zamanı xidməti itlərdən də geniş istifadə edilib. Qeyd olunan istiqamətlər üzrə qarşıya qoyulmuş tapşırıqlar tam həcmdə yerinə yetirilib, xidmətin aparılmasında hər hansı nöqsana yol verilməyib.

Xidmətə cəlb olunan hərbi qulluqçularla əvvəlcədən aparılmış təlimatlandırma, o cümlədən onların mənəvi-psixoloji və fərdi keyfiyyətlərinə xüsusi diqqət yetirilməsi nəticəsində vətəndaşlarla ünsiyyətdə etik davranış qaydalarına ciddi əməl olunub.

Yarış zamanı xidmətin keyfiyyətli təşkili üçün bütün profilaktik tədbirlər görülüb, şəxsi heyətin daşınması, onların qidalanması, hərbi qulluqçulara tibbi xidmətin göstərilməsi, asudə vaxtının səmərəli təşkili də xüsusi diqqət mərkəzində saxlanılıb. Həmçinin aprelin 24-dən “Formula-1 Azərbaycan Qran Pri”sində təhlükəsizliyin təmin edilməsinə cəlb olunmuş qadın hərbi qulluqçular həmişə olduğu kimi, bu dəfə də postlarda xidmətin təşkil olunması zamanı sayıqlıq nümayiş etdiriblər. Əsasən “Atletlər kəndi”ndə nəzarət-buraxılış postlarında xidmətə cəlb olunan qadın hərbi qulluqçularımız əvvəlki beynəlxalq əhəmiyyətli kütləvi idman tədbirlərindən zəngin təcrübələrinə əsaslanaraq xidməti nöqsansız başa vurmağı bacarıblar.






Bir sözlə, ölkəmizdə keçirilən beynəlxalq tədbirlər zamanı ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunmasında kifayət qədər təcrübəyə malik olan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının şəxsi heyəti bu dəfə də qarşıya qoyulmuş bütün tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

**Mətbuat xidməti**

# HƏRBİ HİSSƏDƏ ULU ÖNDƏRİN HƏYAT VƏ FƏALİYYƏTİ MÖVZUSUNDA KONFRANS TƏŞKİL OLUNUB

Daxili Qoşunlarda “Heydər Əliyev İli” münasibətilə silsilə tədbirlər davam edir, şəxsi heyət tərəfindən Ümummilli Liderimizin əziz xatirəsi ehtiramla anılır, dövlətçilik irsi öyrənilir, müəllifi olduğu azərbaycançılıq ideologiyası hərbi qulluqçularımıza geniş aşılanır.

Aprelin 28-də 17071 saylı hərbi hissədə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti mövzusunda konfrans təşkil olunub. Bu münasibətlə hərbi hissəyə Daxili Qoşunların veteranları və Qəbələ rayonunun ağsaqqalları dəvət edilib. Qonaqlar hərbi hissədə yaradılmış Ümummilli Liderimizin xatirə guşəsini, habelə şəhidlər abidəsini ziyarət edərək önlərinə gül dəstələri qoyublar.

Keçirilən konfransda Ulu Öndərin və ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla anılıb, Dövlət Himni oxunub.



Hərbi hissənin komandiri polkovnik Elçin Məmmədov konfransda “Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin təşəkkülündə müstəsna xidmətləri” mövzusunda məruzə ilə çıxış edib. Komandir öz məruzəsində görkəmli dövlət xadimi, qüdrətli sərkərdə, xalqımızın xilaskarı H.Əliyevin mənalı ömrünün, zəngin ictimai-siyasi fəaliyyətinin maraqlı məqamlarına toxunub, Azərbaycanın müstəqilliyinin qorunması, ölkəmizin inkişafı, beynəlxalq aləmdə tanınması, ordu quruculuğunda böyük xidmətləri barədə ətraflı danışıb. O, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Ulu Öndərin siyasi kursunun uğurla davam etdirildiyini, ölkəmizin ötən illər ərzində daha da gücləndiyini, bu gün qalib dövlət olmaq qürurunu yaşadığımızı xüsusi vurğulayıb.

Daxili Qoşunların Veteranlar şurasının sədri Çingiz Daşdəmirov və Qəbələ Rayon Ağsaqqallar şurasının sədri Mehman İsmayılovun konfransda mövzu ilə bağlı çıxışları dinlənilib. Çıxışlarda Ulu Öndərin tarixi missiyasının əhəmiyyəti, dövlətçilik irsinin həyatımızda mühüm rolu diqqətə çatdırılıb.

“Heydər Əliyev və 44 günlük Zəfər yolu” adlı sənədli filmə baxış keçirilib.

Veteranlar və ağsaqqallar konfrans başa çatdıqdan sonra bölmələrdə şəxsi heyətlə görüşərək onların xidməti ilə maraqlanıblar, eləcə də hərbi qulluqçularla vətənpərvərlik tərbiyəsi mövzusunda söhbətlər aparılıb.

**Yalçın Abbasov**

# YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI VƏ MÖHKƏM HƏRBİ İNTİZAM XİDMƏTİN ƏSASINI TƏŞKİL EDİR

25033 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.



Dəstənin uğurlu fəaliyyətindən bəhs edən dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Ruslan Gülalıyev söylədi ki, qarşıya qoyulan müxtəlif tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsinə daim hazır olmaq şəxsi heyətin əsas vəzifəsidir. Keçirilən təlim və məşğələlərin, həmçinin aparılan tərbiyə işinin əsas məqsədi də budur.

Mayor R.Gülalıyev onu da əlavə etdi ki, çətin şəraitdə döyüş tapşırıqlarının keyfiyyətlə icrası məqsədilə həftənin cümə günləri 2 saatdan az olmayaraq gecə təlimləri keçirilir. Bu zaman bölmə komandiri tərəfindən hərbi qulluqçuların bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır.

Tərbiyə işi saatlarında bölmənin şəxsi heyətilə yüksək nizam-intizama nail olmaq və onun qorunub saxlanılması mövzusunda söhbətlər aparılır. Vətənə, dövlətə və dövlətçiliyə, hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlər aşılanır.





Mayor R.Gülalıyev təlim və məşğələlərdə fərqlənən, öz vəzifələrinə məsuliyyətlə yanaşan hərbi qulluqçulardan baş leytenant Ağasəməd Umudlunun, gizir Nicat Məmişovun, baş çavuş Şəhriyar Hacıyevin, çavuş Aqil Abbasovun və əsgər Kənan Kərəmovun adlarını çəkdi.

İnanırıq ki, dəstənin şəxsi heyəti bundan sonra da yüksək peşəkarlıq göstərərək qazandığı uğurları qoruyub saxlamağa müvəffəq olacaqdır.

**kapitan Şahin Cəfərzadə**

# İNSAN HÜQUQLARI ÜZRƏ MÜVƏKKİL (OMBUDSMAN) APARATININ NÜMAYƏNDƏLƏRİ HƏRBİ HİSSƏMİZLƏ TANIŞ OLUBLAR

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatının əməkdaşları Qasım Bayramov və Rəmzi Həsənov aprelin 25-də 12565 saylı hərbi hissədə olublar.

İlk olaraq hərbi hissənin ərazisi ilə tanış olan qonaqlar hərbi hissənin əsgər yeməkxanasına, əsgər kazarmasına, sinif otaqlarına, idman zalına, tibb məntəqəsinə və anbarlara ümumi baxış keçirib, müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə görüşüb, asudə vaxtın təşkili və tibbi-sosial xidmətin vəziyyəti ilə maraqlanıblar.



Ombudsmanın nümayəndələri şəxsi heyətə insan hüquqları, o cümlədən hərbi qulluqçuların hüquqları, Ombudsmanın bu istiqamətdə fəaliyyəti barədə məlumat verib, mövcud hərbi qanunvericilik və hərbi nizamnamələr mövzusunda söhbətlər aparıblar. Görüşün keçirilməsində əsas məqsəd İnsan Hüquqları üzrə Müvəkkil (Ombudsman) Aparatının hərbi qulluqçuların hüquq və azadlıqlarının qorunub saxlanılması sahəsində həyata keçirdiyi fəaliyyət haqqında şəxsi heyətə ətraflı məlumat vermək, hərbi qulluqçuların hüquqi baxımdan maarifləndirilməsini təmin etmək və onları maraqlandıran sualları cavablandırmaq olub.

**kapitan Xədicə Hacızadə**

# “DİN VƏ İDEOLOJİ TƏHLÜKƏSİZLİK” MÖVZUSUNDA TƏDBİR KEÇİRİLİB

Mayın 5-də 25031 saylı hərbi hissədə “Din və ideoloji təhlükəsizlik” mövzusunda tədbir keçirilib. Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Səyavuş Heydərov iştirak edib.

Tədbiri giriş sözü ilə açan Daxili Qoşunların Baş İdarəsinin şəxsi heyət üzrə idarə rəisinin müavini - mənəvi-psixoloji hazırlıq şöbəsinin rəisi polkovnik Şahin Bəylərov mövzunun əhəmiyyətini vurğulayaraq, gəncləri radikal dini cərəyanların qurbanına çevrilməkdən qorumağın, onları vətənpərvər ruhda tərbiyə etməyin zəruriliyindən danışıb. O bildirib ki, şəxsi heyətin vətənpərvərlik hissi, mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksək səviyyədədir.




Daha sonra çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini S.Heydərov bildirib ki, dünyada cərəyan edən, sülh və beynəlxalq təhlükəsizlik üçün təhdid xarakteri daşıyan geosiyasi proseslərin dinamik inkişafı fonunda ictimai-siyasi həyatda din amili, dini təhlükəsizlik problemləri daha da aktuallaşır.

Əlavə edib ki, ölkəmizdə multikultural, tolerant mühitin formalaşmasında düşünülmüş dövlət siyasəti mühüm rol oynayır. Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra dövlət tərəfindən bu sahədə yaradılan bütün zəruri şərait və dəstək dünyaya örnək sayılacaq səviyyədədir. Təbii ki, digər sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində Ulu Öndər Heydər Əliyevin böyük xidmətləri olub və bu siyasət dövlət başçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

S.Heydərov onu da vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə milli-mənəvi və dini dəyərlərin qorunması istiqamətində dövlət siyasəti uğurla həyata keçirilir.

**kapitan Nigar Ağayeva**

3_Layout 1 12.05.2023 10:05 Page 1



# ULU ÖNDƏRİN 100 İLLİK YUBİLEYİ MÜNASİBƏTİLƏ SİLSİLƏ TƏDBİRLƏR DAVAM EDİR

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə may ayının 4-də 99713 hərbi hissədə təntənəli mərasim keçirilib. Mərasimdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-vəzifə borclarının icrası zamanı həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.



Tədbirdə Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin Türk filologiyası kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Rüfət Rüstəmov hərbi hissənin



şəxsi heyəti qarşısında çıxış edib. Dövlətimizin qurucusu, azərbaycançılıq ideologiyasının banisi, Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti, xalqımıza, dövlətimizə verdiyi töhfələr, eləcə də dahi liderin rəhbərliyi altında ordu quruculuğu sahəsində görülən genişmiqyaslı işlər barədə məlumat verilib.

Daha sonra "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmi nümayiş etdirilib.

*****

Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə növbəti tədbir 12565 saylı hərbi hissədə keçirilib. Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Liderinin 100 illik yubileyi ilə bağlı hərbi hissənin şəxsi



heyəti Heydər Əliyev Muzeyini ziyarət edib.

Eksponatlarla tanış olan hərbi qulluqçulara dahi rəhbərin həyat və fəaliyyəti barədə müfəssəl məlumat verilib. Qeyd olunub ki, Ulu Öndər Silahlı Qüvvələrimizin, o cümlədən Daxili Qoşunların formalaşdırılmasını əsas prioritetlərdən hesab edib və bu sahəyə xüsusi diqqət ayırıb. Bu gün Daxili Qoşunların layiqli inkişaf yolu keçməsi və əsaslı maddi-texniki bazaya malik olmasında dahi liderin ordu quruculuğu siyasətinin böyük rolu vardır. Şəxsi heyət muzeydən zəngin təəssüratla ayrılıb. Daha sonra şəxsi heyətin Naxçıvan şəhərində yerləşən tarixi Möminəxatun məqbərəsinə, açıq səma altında muzeyə, sonda isə Naxçıvan Xan sarayına gəzintisi təşkil olunub.

*****

Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə may ayının 10-da 12576 saylı hərbi hissədə tədbir keçirilib. Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin, Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-vəzifə borclarının icrası zamanı həlak olmuş hərbi qulluqçularımızın xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Dövlət Himni səsləndirilib.

Milli Məclisin deputatı Ziyad Səmədzadə, hərbi ekspert, istefada olan polkovnik Elxan Şıxəliyev, Bakı Dövlət Universitetinin professoru İsmayıl Əliyev, şəhid ailələrinin üzvləri tədbirdə iştirak ediblər.

Hərbi hissənin şəxsi heyəti qarşısında çıxış edən qonaqlar Ulu Öndər Heydər Əliyevin həyatı, çoxşaxəli fəaliyyəti barədə məlumat veriblər. Bildirilib ki, Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir.





Həmçinin əlavə edilib ki, Azərbaycana rəhbərliyi dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olub. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir.

Daha sonra "Heydər Əliyev və 44 günlük Zəfər yolu" sənədli filmi nümayiş etdirilib. Tədbir Daxili Qoşunların Nümunəvi göstərici hərbi orkestrinin musiqili proqramı ilə davam edib.

Qeyd edək ki, Ulu Öndərin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar tədbirlər Daxili Qoşunların digər hərbi hissələrində də təşkil olunub.

**kapitan Xədicə Hacızadə**

*Şəhidlərimiz*

# VƏTƏN TORPAĞINA ÖZ CANI İLƏ NƏFƏS VERƏN CƏNGAVƏR

Şəhidlik ən yüksək mənəvi zirvə, mənsub olduğun dövlət və xalq naminə misilsiz fədakarlıq, dinimizin müqəddəs saydığı məqama qovuşmaq deməkdir. Hər bir şəhid öz xalqının şərəfini ucaldır, onun döyüş ruhunu qüdrətləndirir, göstərdiyi qorxmazlıq və qeyrət nümunəsi ilə ölümünü qalib kimi qarşılayır. Məhz belə oğulların sayəsində döyüş meydanında hərbi zəfər qazanılır.

44 günlük Vətən müharibəsində qələbəmizə öz həyatı bahasına töhfə verən cəsur hərbi qulluqçularımızdan biri də çavuş Orucov Afər Yafət oğludur. O, 1996-cı il martın 13-də Quba rayonunun Aşağı Atuc kəndində anadan olub. Yafət Orucov və İradə Orucovanın qurduqları ailənin böyük övladı olmuş Afərin Cahid, habelə Şöhrət adlı qardaşları var. Afər ləyaqətli, ailəcanlı, xeyirxah, el-obasına hörmət bəsləyən, cəsarətli, dostunu darda qoymayan, zəhmətlə məqsədinə çatmağı bacaran gənc olaraq formalaşıb. Valideynləri və müəllimləri onu vətənpərvər əqidəli vətəndaş kimi yetişdiriblər. Aşağı Atuc kənd tam orta məktəbində 11 il təhsil almış Afər humanitar fənlərə daha çox maraq göstərib. Bədii ədəbiyyatı həvəslə mütaliə edib, müxtəlif məzmunlu şeirlər onun ovqatını yüksəldib. Məktəbli olduğu vaxtdan fiziki hazırlığına həmişə ciddi diqqət yetirib, rayon mərkəzində yerləşən idman kompleksində karate üzrə məşqlərə gedib. Orta məktəbdən sonra o, fərdi işlərdə çalışıb, ailəsinin rifahı üçün valideynlərinə öz köməyini əsirgəməyib.

2014-cü ilin aprel ayında Afər müddətli həqiqi hərbi xidmətə çağırılıb. Dövlət Sərhəd Xidmətinin Cəlilabad və Lerik rayonlarında yerləşən "N" saylı hərbi hissələrində hərbi xidmət keçib. Sərhədçi olaraq hərbi xidmət borcunu vicdanla yerinə yetirib, dövlət sərhədimizin keşiyində ayıq-sayıq dayanıb. 2015-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətdən tərxis olunub. Ehtiyata buraxıldıqdan bir müddət sonra həyatını hərbçi peşəsinə bağlamağı qərar verib, bu seçimi ilə əlaqədar valideynlərinin xeyir-duasını alıb.

2016-cı ilin avqust ayının 13-dən etibarən Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 25033 saylı hərbi hissənin xüsusi vasitələrin tətbiqi dəstəsinin xüsusi vasitələrin tətbiqi qrupunun baş atıcısı, həmçinin xüsusi təyinatlı dəstənin xüsusi həmlə qrupunun atıcı-sanitarı və istehkamçı yarımqrupunun heyvan təlimçisi-istehkamçısı vəzifələrinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gəlib. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb. Xüsusi təyinatlıların sıralarında olması ilə qürur duyub, təlimlər və məşğələlərdə özünü hər zaman qarşıya çıxa biləcək çətin sınaqlara hazırlayıb.



2018-ci ilin mart-aprel aylarında Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin təşkil etdiyi "Əsas humanitar minaaxtarma təlimi"nə qatılıb. Bu təlimi müvəffəqiyyətlə bitirən xüsusi təyinatlıya müvafiq şəhadətnamə verilib.

Komandirləri tərəfindən nümunəvi xidməti nəzərə alınaraq bir neçə dəfə mükafatlandırılan Afər hərbçi şərəfini, xidmət etdiyi qoşunun nüfuzunu daim uca tutub.

2020-ci il sentyabrın 27-də erməni işğalçılarına qarşı başlayan Vətən müharibəsi xüsusi təyinatlı kimi onun da həyatının çətin və şərəfli sınağı olub. Bu sınaqdan o, alnıaçıq çıxıb, son nəfəsinədək hərbi anda sadiq qalıb.

Vətən müharibəsi qazisi, ehtiyatda olan baş gizir Xəyal Məmmədov Afərin yarımqrup komandiri olub. O, məlumat verdi ki, tabeliyində xidmət etmiş Afər çalışqan, iradəli, dözümlü, təmkinli hərbi qulluqçu kimi yaddaşında qalıb. Heyvan təlimçisi-istehkamçı olaraq xidməti itlərin təlimində, onlara düzgün qulluq göstərilməsində bacarığı ilə fərqlənib. Cəlilabad, Masallı, Lənkəran və Astara rayonlarının ərazilərində tapılan müxtəlif növ döyüş sursatlarının zərərsizləşdirilməsi üzrə tapşırıqların yerinə yetirilməsinə cəlb olunub. 2017-ci ildə Bakıda keçirilən İslam Həmrəyliyi Oyunlarında, 2019-cu ildə isə voleybol üzrə beynəlxalq yarışda təhlükəsizliyin təmin olunmasında iştirak edib.

Qazinin sözlərinə görə, 44 günlük Vətən müharibəsi zamanı 25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin şəxsi heyəti də torpaqlarımızın müdafiəsi və işğaldan azad olunması kimi müqəddəs vəzifəni həyata keçirmək üçün cəsurluqla döyüşüb. Öncə hərbi qulluqçularımız 16077 saylı hərbi hissədə yerləşdiriliblər, orada bir müddət ehtiyat qüvvə qismində qalaraq, döyüş tapşırıqlarının icrasına hazırlaşıblar, o cümlədən dislokasiya ərazisi üzrə komendant postlarında xidmətə çıxıblar. Sonra həmin dövrdə "kapitan" hərbi rütbəsində olmuş xüsusi təyinatlı dəstənin komandiri mayor Cavid Tağıyevin rəhbərliyi altında ön cəbhəyə göndəriliblər. Müdafiə Nazirliyinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti ilə birgə döyüş əməliyyatlarına başlayıblar. Xəyal bildirdi ki, Afər 7,62x39 mm çaplı modernləşdirilmiş Kalaşnikov avtomatı ilə vuruşub. Onun ilk döyüşü Füzuli rayonunun Kərimbəyli kəndi ətrafında olub, "Beton post" adlanan mövqedə şiddətli atəşə tutulublar. Həmin istiqamətdə ərazilərimizin işğaldan azad olunması uğrunda döyüşlərdə mərdlik göstərib. Bununla yanaşı, Füzuli və Cəbrayıl rayonlarında ön mövqelərin müdafiəsində dayanıb. Müharibənin son mərhələsində Afərin döyüş yolu Xocavənd və Xocalı rayonlarının bir sıra kəndləri və yüksəkliklərindən keçməklə Şuşayadək davam edib. Şuşaya doğru bir neçə gün hərəkət edərək Topxana meşəsində cəmləşiblər. Orada ayrı-ayrı qruplara hərəkət istiqaməti müəyyən edilərək tapşırıqlar verilib. Şuşanın qala divarlarına tərəf irəliləyən qrupun tərkibində Afər də olub. Göstərilən ərazidə işğalçıların atəş nöqtələri susdurulub. Noyabrın 5-dən 6-na keçən gecə düşmən tankından atılan mərminin yaxınlıqlarında partlaması nəticəsində Afər şəhadətə ucalıb, Xəyal isə ağır yaralanıb.

25033 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin istehkamçı yarımqrupunun istehkamçısı çavuş Famil Məmmədov da Vətən müharibəsi iştirakçısıdır. O, Afərin xalası oğludur, yaşda ondan böyükdür, dəstədə birlikdə xidmət ediblər, birgə döyüş yolu keçiblər. Famil Şuşa uğrunda döyüşlərdə yaralanıb. Şəhid haqqında maraqlı xatirələrini danışdı: "Afərlə xidmət zamanı modul tipli yataqxanada eyni otaqda qalırdıq. Yoldaşları ilə nəzakətli davranırdı, heç vaxt artıq hərəkətə yol verməzdi, xaraktercə ədalətli və sədaqətli insan idi. Ürəyi Vətən sevgisi ilə döyünürdü. Məsuliyyətli hərbçi olub, öz peşəsi üzrə zəruri bilikləri



mənimsəyib. Müxtəlif tədbirlərdə və əməliyyatlarda peşəkarlığı ilə seçilib. Xüsusi təyinatlı kimi öz məharətini, döyüş qabiliyyətini ön cəbhədə də nümayiş etdirib. Düşmənə nifrət, qələbəmizə inam hissi ilə vuruşub. Komandirlər döyüşlərdə də ona güvəniblər. Noyabrın 6-na keçən gecə, təxminən saat 1 radələrində Şuşa şəhərinin yaxınlığında işğalçılar tərəfindən tank, habelə minaatanlar vasitəsilə açılan atəşə məruz qalan döyüşçülərimizdən Vüsal, Afər və İsmayıl qəlpə yaralarından şəhid oldular. Bir neçə nəfər hərbi qulluqçumuz isə yaralandı. Həmin vaxt Afərin yanında idim. Çox sarsılmışdım, o anları xatırlamaq ağırdır. Noyabrın 10-da şəhidlərimizin nəşini təxliyyə etmək mümkün oldu.

Hamı kimi Afərin də gələcək həyatla bağlı arzuları vardı, ev tikdirirdi, maşın almışdı, onu sürmək qismət olmadı".

Füzuli Rayon Qeydiyyat Şöbəsi tərəfindən verilən 12 noyabr 2020-ci il tarixli ölüm haqqında şəhadətnamədə çavuş A.Orucovun 10 noyabr 2020-ci il tarixində Şuşada hərbi əməliyyat nəticəsində körpücükaltı arteriyasının travması, qəlpələrlə zədələnmələr səbəbindən şəhid olduğu barədə qeydlər öz əksini tapıb.

Azərbaycan Respublikası Prezidentinin 15, 25, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş A.Orucov ölümündən sonra "Vətən uğrunda", "Füzulinin azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

Aşağı Atuc kəndində şəhid xüsusi təyinatlının adına küçə var. Hər iki Qarabağ müharibəsi zamanı bu kənddən üç nəfər şəhidlik zirvəsinə ucalıb. Orucovlar ailəsinin yaşadığı evdə şəhidin xatirə guşəsi düzəldilib. Bakı şəhərinin Yasamal rayonunda yerləşən Mirələkbər İbrahimov adına 153 saylı tam orta məktəbin 2 e sinfinə Afərin adı verilib. "44 günlük tarixi möcüzə (Qubanın Vətən müharibəsi şəhidləri)" və "Quba şəhidlərinin ev muzeyləri" kitablarında, "Yurd sevgisi" qəzetində şəhid haqqında məqalələr dərc olunub. "Real" televiziya kanalında döyüşçünün ömür yolu işıqlandırılıb, həmçinin barəsində videoçarx hazırlanaraq internet şəbəkəsində yayımlanıb.

Afərin qardaşı Şöhrət Quba Rayon Polis Şöbəsinin ictimai təhlükəsizlik bölməsinin polis nəfəridir, "serjant" rütbəsindədir, digər qardaşı Cahid isə Quba Rayon Polis Şöbəsində polisə ictimai dəstək üzrə mülki işçidir. Qardaşların polis sıralarında fəaliyyəti Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun onlara etimad və qayğısının təzahürüdür. Şəhidin daha bir xalası oğlu Namiq Məmmədov da Vətən müharibəsi iştirakçısıdır.

Sonuncu dəfə oktyabrın 31-də qardaşı Şöhrətə zəng vurmuş Afər doğmalarından hal-əhval tutub, valideynlərdən muğayat olmağı tapşırıb, bank kartında qalmış vəsaitlə borclarının bağlanmasını ona həvalə edib, tezliklə qələbə müjdəsini verəcəyini deyib. Cəsur hərbi qulluqçumuz ailəsinə qələbə müjdəsini verə bilməsə də, onun və digər şəhidlərimizin bu arzusu həyata keçdi. Məqaləni Rəcəb Fərəcovun Afərə həsr etdiyi şeirdən iki misra ilə yekunlaşdırıram:

***Qanıyla tarix yazdı neçə cəngavərimiz,***
***Vətən uğrunda canını etdi fəda Afərimiz.***

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# XİDMƏTİ FƏALİYYƏTDƏ MƏSULİYYƏT VƏ İCRAÇILIQ VACİB KEYFİYYƏTLƏRDİR

Daxili Qoşunların Ali Hərbi Məktəbinin nümunəvi bölmələrindən olan qərargahın məxfi hissəsi öz fəaliyyətini Daxili işlər nazirinin və Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq əmr və göstərişlərinin tələbləri əsasında təşkil edir. Məxfi hissə rəisi baş çavuş Kamal Qafarov Ali Hərbi Məktəbin komandanlığı tərəfindən nizam-intizamlı, savadlı və bacarıqlı hərbi qulluqçu kimi xarakterizə olunur.



Baş çavuş K.Qafarov bildirdi ki, hissə rəisi kimi o, məxfi hissənin fəaliyyətinə ümumi rəhbərliyi həyata keçirir, məxfi kargüzarlığın aparılması zamanı dövlət və hərbi sirrin qorunmasına, məxfi hissədə işin təşkilinə, məxfi sənədlərin qorunub saxlanılmasına, icraçılar tərəfindən vaxtlı-vaxtında icra olunaraq qaytarılmasına cavabdehlik daşıyır. Məxfi hissənin işinin gündəlik olaraq planlaşdırılması, məxfilik rejiminin tənzimlənməsi, məxfi sənədlərlə bərabər, möhür və ştampların qeydiyyatının aparılması, onlardan düzgün istifadə olunması və qorunmasına nəzarət edilməsi də hissə rəisinin vəzifələridir.

Hərbi qulluqçu əlavə etdi ki, daxil olan məxfi sənədlər barədə gündəlik olaraq məktəb rəisinə və aidiyyəti üzrə onun müavinlərinə məruzə olunur. Məxfi nəşrlərin, topoqrafik xəritələrin, digər materialların qəbulu, qeydiyyatı, hesabatların və nomenklatura üzrə işlərin aparılması, göndərilməsi, istifadə qaydalarına riayət olunması ciddi nəzarətdə saxlanılır.

Məxfi hissədə kargüzar çavuş Aynurə Əliyeva da layiqli xidmətilə fərqlənir. Vəzifələrini vicdanla yerinə yetirir, məxfi kargüzarlığın aparılmasına dair əmr, sərəncam və müvafiq təlimatların tələblərini bilir, gündəlik fəaliyyətində onlara əməl edir. Həmçinin daxil olan məxfi sənədlərin uçot jurnalında qeydiyyatdan keçirilməsi və aidiyyəti üzrə icraçılara çatdırılmasını təmin edir. Məxfi hissəyə qaytarılan sənədləri işlərə tikir.

Bir sözlə, məxfi hissə qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirir.

**kapitan Xədicə Hacızadə**

# UĞURLU XİDMƏTLƏRİ İLƏ FƏRQLƏNƏN İSTEHKAMÇILAR

17072 saylı hərbi hissənin hərbi qulluqçuları hər zaman qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsində peşəkarlıq nümayiş etdirirlər. Hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında rolu olan bölmələrdən biri də xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupudur.



Xidmət müddətində bir çox tapşırığı uğurla yerinə yetirən xüsusi təyinatlı dəstənin istehkamçı yarımqrupunun komandiri-baş istehkamçısı gizir Elçin Quliyev söylədi ki, yarımqrupun əsas vəzifələri təhkim olunmuş ərazidə sahibsiz qalmış şübhəli əşyaların zərərsizləşdirilməsi, partlamamış hərbi sursatların, minaların aşkar olunaraq təhlükəsiz hala gətirilməsi və ya partladılması, eləcə də dövlət əhəmiyyətli tədbirlərin keçirildiyi əraziyə daxil olan avtomobillərdə axtarış apararaq naməlum əşyaların, partlayıcı maddələrin aşkar edilməsidir.



Məlumat üçün bildirək ki, hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunan gizir E.Quliyev ötən müddət ərzində özünü nümunəvi hərbi qulluqçu, peşəkar istehkamçı kimi nümayiş etdirməyi bacarıb.

Gizir E.Quliyev yarımqrupun nümunəvi hərbi qulluqçularından baş çavuş Qəhrəman Şahquliyevin, çavuşlar Elçin Əhmədağalı, Elməddin Yusubov və Şadman İsmayılovun adlarını qeyd edərək, onların verilən tapşırıqların icrasına hər zaman məsuliyyətlə yanaşdıqlarını bildirdi.

Hərbi hissənin mühəndis və kimya xidmətinin rəisi mayor Ruslan Rəhimov istehkamçı yarımqrupunun fəaliyyətini müsbət qiymətləndirərək, vəzifə borclarının icrasına məsuliyyətlə yanaşan şəxsi heyətin bundan sonra da qarşıya qoyulan tapşırıqların vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə hazır olduğunu qeyd etdi.

**kapitan Nigar Ağayeva**

# SAĞLAMLIĞIN KEŞİYİNDƏ ƏZMKAR XİDMƏT

17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun tibb məntəqəsində hərbi qulluqçuların sağlamlığının qorunması üçün hər cür şərait mövcuddur. Xidməti ezamiyyətdə olarkən diqqətimizi ilk olaraq cəlb edən mövcud səliqə-sahman və hər bir tibb ləvazimatının nizamlı şəkildə yerləşdirilməsi oldu.



Tibb məntəqəsinin sanitar təlimatçısı - dezinfektor gizir Vüsalə Əliyeva artıq 14 ildir ki, hərbi hissənin şəxsi heyətinin sağlamlıq durumu ilə birbaşa əlaqəsi olan orta tibb işçisidir.

Gizir V.Əliyeva 1980-ci il dekabrın 7-də Qazax rayonunda anadan olub. 1986-1996-cı illərdə Qazaxda yerləşən Qaratel Hacımahmudova adına 2 saylı orta məktəbdə təhsil alıb. 1996-cı ildə H.Zərdabi adına Gəncə Tibb Texnikumuna qəbul olunub. 1998-ci ildə təhsilini başa vurduqdan sonra bir müddət Qazax Rayon Təcili və Təxirəsalınmaz Tibbi Yardım Stansiyasında tibb bacısı vəzifəsində işləyib. 2009-cu ildə həm ailəsinin, həm də özünün istəyi ilə 17072 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi feldşer vəzifəsinə təyin olunub. 2022-ci ilin noyabr ayından hazırkı vəzifədədir. Xidmətə gəldiyi ilk gündən bacarığı, işgüzarlığı ilə seçilib. Bu gün də, xidmətin ilk illərində olduğu kimi, funksional vəzifələrinin icrasına məsuliyyətlə yanaşır. Tabor komandiri və hərbi hissənin tibb xidmətinin rəisi tərəfindən müsbət xarakterizə olunur.

**kapitan Nigar Ağayeva**

# ŞƏXSİ HEYƏTİN NORMAYA UYĞUN KEYFİYYƏTLİ QİDALANMASI DİQQƏT MƏRKƏZİNDƏDİR

Daxili Qoşunlar komandanlığının əsas diqqət yetirdiyi sahələrdən biri də şəxsi heyətin keyfiyyətli, kalorili yeməklərlə qidalanmasıdır. Çünki hərbi qulluqçuların sağlamlığının qorunması və səhhətinin möhkəmləndirilməsi digər amillərlə yanaşı, sağlam və keyfiyyətli qidalanmadan da asılıdır.

25033 saylı hərbi hissənin maddi-texniki təminat xidmətlərində ərzaq xidmətinin rəisi mayor Elnur Cəfərov şəxsi heyətin qidalanmasının Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Silahlı Qüvvələrdə ərzaq normalarının bölünməsi Qaydaları"na, Daxili işlər nazirinin müvafiq əmri ilə təsdiq edilmiş "Daxili Qoşunlarda ərzaq xidmətinin təşkili haqqında Əsasnamə"yə və digər rəhbəredici sənədlərin tələblərinə əsasən təşkil edildiyini söylədi.



Onun sözlərinə görə, xörəklərin keyfiyyətli hazırlanması Daxili Qoşunların və hərbi hissə komandanlıqlarının qarşıya qoyduğu ən vacib tələblərdəndir. Bu baxımdan hazırlanan xörəklərin keyfiyyətinin yüksək olması, sanitar-gigiyenik qaydalara ciddi riayət edilməsi üçün bütün tədbirlər görülür.

Mayor E.Cəfərov görülən işlərdə yeməkxana rəisi baş gizir Elnur Abbasovun zəhmətini xüsusilə vurğuladı. Onun qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəldiyini, qidaların tələb olunan keyfiyyətdə hazırlanması, gigiyena qaydalarına ciddi əməl olunması üçün öz əməyini əsirgəmədiyini diqqətə çatdırdı.

Əlavə olaraq, qidaların tələb olunan səviyyədə keyfiyyətlə hazırlanmasında işçi-aşpazlardan Tabəs Ağayevanın, Səbriyyə Quliyevanın, Kəmalə Əliyevanın və Mərifət Mehrəliyevanın fəaliyyətini də müsbət xarakterizə etdi.

**kapitan Şahin Cəfərzadə**

*İdman*

# DAXİLİ QOŞUNLARIN YIĞMA KOMANDASI İKİNCİ YERƏ LAYİQ GÖRÜLÜB



Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə aprelin 28-29-da Polis Akademiyasında daxili işlər orqan və hissələri arasında parkur üzrə komanda birinciliyi uğrunda yarış keçirilib.

Yarışda Daxili Qoşunların yığma komandası 9 idmançı və 1 nümayəndə ilə təmsil olunub. 11 komanda arasında keçirilən yarışda Polis Akademiyasının komandası 1-ci, Daxili Qoşunların komandası 2-ci, Əlahiddə Çevik Polis Alayının komandası 3-cü yerə layiq görülüblər. Komandalar müvafiq dərəcəli kubok və diplomlarla mükafatlandırılıblar.

**Mətbuat xidməti**

*NÜMUNƏVİ XİDMƏT*

# BACARIQLI RADİOTELEFONÇU

25033 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Rəşad İsgəndərlidir. O, 2022-ci ilin iyul ayında 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin oktyabr ayına kimi 25033 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu keçərək təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.

Əsgər R.İsgəndərli 2001-ci il iyunun 27-də Bakı şəhərində anadan olub. 2007-2018-ci illərdə paytaxtın Binəqədi rayonundakı 217 nömrəli orta məktəbdə təhsil alıb. Uşaq yaşlarından idmanın karate növünə maraq göstərib və sərbəst şəkildə məşğul olub. 2018-2022-ci illərdə Azərbaycan Memarlıq və İnşaat Universitetində menecment ixtisasına yiyələnib. Sərbəst vaxtlarında kitab oxuyub və sazda ifa edib.



Radiotelefonçu bildirdi ki, rabitə növbətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.

Əsgər R.İsgəndərli xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları ləyaqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**25033 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# HƏRBİ XƏBƏRLƏR

*- YENİLİKLƏR -*

## ABŞ rekord miqdarda "Javelin" sifariş edib

Ordu.az xəbər verir ki, "Javelin" ehtiyatı risk altında olan ABŞ rekord bir sifariş verib. Belə ki, ABŞ ordusu "Javelin" Birgə Müəssisəsinə (JJV) 2023-2026-cı illər üçün ümumi dəyəri 7,2 milyard dollar olan sifariş verib.

Bu kontekstdə imzalanan 1,02 milyard dollar dəyərində ilk müqavilə "Javelin" istehsalını 2026-cı ilin sonuna qədər ildə 3,960-a çatdırmaq üçün istehsal dəstəyini əhatə edir.



İstehsal müqaviləsi ABŞ ordusu və beynəlxalq müştərilər üçün "Javelin" komplekslərinin tədarükü və dəstəyini əhatə edir.

# Allah rəhmət eləsin

Daxili Qoşunların Veteranlar şurası **istefada olan mayor Əhməd Əhmədovun** vəfatından kədərləndiyini bildirir və ailəsinə dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı gizir Həqiqət Atayevaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı baş çavuş Murad Eyvazlıya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

16076 saylı hərbi hissənin komandanlığı çavuş Fatimə Nağıyevaya **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

99713 saylı hərbi hissənin komandanlığı MAXE baş əsgər Rəşad Əhmədova **atasının** vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

*TƏSİSÇİ:*
**Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.**
Redaktor: Anar Əhmədov

**REDAKSİYANIN ÜNVANI:**
**AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.**
Əlaqə telefonları: 560-22-63

**Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.**

**Şəhadətnamə 3565**
**Sayı 3000**